# TBMM-in deputatı Xankəndi və Şuşa şəhərlərinə səfər edib

Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak üçün Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) büro üzvü Hasan Turan oktyabrın 28-də Xankəndi və Şuşa şəhərlərinə səfər edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Xankəndi şəhərinə gələn millət vəkili burada Zəfər meydanında və Qarabağ Universitetində olub. O, Xankəndidə Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olub, universitetin tələbələri ilə söhbət edib.

Diqqətə çatdırılıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bu gün həyat öz axarına qayıdır. Yaşayış məskənləri tikilib bərpa olunduqca keçmiş məcburi köçkünlər öz yurdlarına qaytarılır.

Sonra Şuşaya gələn TBMM üzvünün şəhərlə tanışlığı Şəhər Meydanından başlayıb. Qonağa Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin burada qoyulmuş heykəllərinin işğal dövründə ermənilər tərəfindən güllələnməsi barədə məlumat verilib.

Sonra Hasan Turan Yuxarı Gövhər ağa məscidi ilə tanış olub, Şuşanın Qala divarlarını seyr edib, Cıdır düzünə qalxıb.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 29 oktyabr (№ 231).- S.9.